**Pandemiya şəraitində tətbiq edilən sərt karantin rejiminin yumşaldılması səbəbindən vətəndaşlarda yaranan arxayınçılığın nəticəsi özünü çox gözlətmədi. İnsanların maskasız gəzintiləri, qaydalara əməl etməmələrinin sonu yoluxma sayının artması ilə nəticələndi. Səbəb isə məlumdur: bəzi insanların məsuliyyətsizliyi. Məhz buna görə karantin rejiminin yumşaldılması dayandırılır və məhdudlaşdırılma yenidən aktivləşdirilir. Belə ki, cümə günü axşamdan bazar ertəsi səhərə kimi tam qapadılma tətbiq olunacaq. İctimai və fərdi nəqliyyatın hərəkəti, küçəyə çıxma, iş rejimi məhdudlaşdırılacaq, mağazalar bağlanacaq. Nazirlər Kabineti yanında operativ qərargahın verdiyi məlumatda belə deyilir.**

# Pandemiya şəraitində hər bir vətəndaş şəxsi məsuliyyətini artırmalıdır





Onu da qeyd etməliyik ki, virusdan qorunma yolları ilə bağlı hər gün mətbuatda, televiziya kanallarında, sosial şəbəkələrdə yetərincə tövsiyə xarakterli məlumatlar verilir, insanlara lazımı bilgilər aşılanır. Nədənsə, təxribat xarakterli məlumat yayanların fikirlərinə diqqət yetirənlər daha çox olur. Hamı yaxşı xatırlayır ki, virusa yoluxma sayı gündəlik 1--5 olanda bir çox ölkələr kimi Azərbaycan da pandemiyaya hazır olmadığından ölkədə maska qıtlığı yaranmışdı. Həmin tip insanlar bütün günü "maska yoxdur, nə taxaq? Dövlət hara baxır?" kimi absurd fikirlərlə sosial şəbəkələrdə meydan sulayırdılar. Cənab Prezidentin tapşırığı ilə ölkədə maska istehsal edən müəssisə işə salındı və bu problem aradan qalxdı. Sonra yoluxmaların artdığını görüb, Avropa ölkələrində nə zamandan bəri tətbiq olunan maskasız gəzənlərin cərimələnməsi məsələsi qəbul edildi. İndi bu maskasız gəzən, "virus boş şeydir" – deyib kütlə səviyyəli insanlar arasında "təbliğat" aparanlardan soruşmaq lazımdır? – Maska arzulayırdınız. Niyə taxmırsınız? 30 qəpik verib maska almaq, canını xəstəlikdən qorumaq yaxşıdır, yoxsa 50 manat cərimə ödəyib xəstəliyi satın almaq? Virusa münasibətdə bu qədər məntiqsiz, savadsız, düşüncəsiz baxış olmaz axı...

Pandemiya başlayan zamandan etibarən tövsiyələrinə ehtiyac duyduğumuz bir sıra həkimlərin bu bəladan qorunma yolları ilə bağlı maarifləndirici fikirlərini dərc etmişik. **"Leyla" klinikasının şöbə müdiri Sahib Cəfərov** da bizim davamlı olaraq müraciət etdiyimiz həkimlərdəndir. O, koronavirusa yoluxma sayının iyunun 3-dəki artımı ilə bağlı dedi:

– Pandemiya başlayandan gigiyenik vasitələrə məhəl qoymayanlara, maska taxmayanlara dəfələrlə müraciət edib qorunmağın vacibliyini tövsiyə etmişəm. İndi görürsünüzmü ki, dairə daralır. Öz əllərimizlə, məsuliyyətsiz davranışımızla boğazımıza keçirdiyimiz kəndirin halqasını nəzərdə tuturam. Gündən-günə yoluxma sayının artması ilə yanaşı, həm də xəstəliyin daha aqressiv xarakter alması vəziyyəti daha da qəlizləşdirir. Pandemiya başlayandan ehtiyat etdiyimiz hal -- xəstəxanaların həddən artıq yüklənməsi, və belə davam etsə, həkim və dava-dərman çatışmazlığı ilə üzləşməyimizə az qalıb.

Karantin tədbirlərinin yumşaldılması ilə dövlət öz vətəndaşlarının şəxsi məsuliyyətinə etibar etdi. Lakin biz bunu doğru-dürüst anlaya bilmədik. Demokratiya anarxiya demək deyil, eləcə də karantin tədbirlərinin yumşaldılması məsuliyyətsiz davranmağımıza əsas vermir. Qaydaların yenidən sərtləşdirilməsi və cəza sanksiyalarının tətbiq olunmasına ehtiyac zərurətdən yarandı. Bilənlər bilir, bilməyənlərə də deyək, bilsinlər: itkilərimiz artır. Bizi bu sosial bəladan yalnız şəxsi məsuliyyətimiz qoruya bilər. İnsanlardan tələb olunan budur ki, qarşınızdan gələn hər bir kəsdən, ən doğmanız olsa belə, potensial xəstə kimi qəbul edərək qorunun. Özünüzü və sevdiklərinizin həyatını bu bəlaya qurban verməyin. Hamınıza bu çətin imtahandan itkisiz çıxmağı arzulayıram.

**"Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri Yazgül Abdıyeva** bu xəstəliyin gündən-günə artdığını, bir gündə 325 yeni yoluxmanın qeydə alındığını çox ciddi və təhlükəli hesab edir. "Xəstəlik yoxdur deyən və səhv informasiya yayanlar nəinki cahil insanlardır, hətta xalqa qənim kəsilənlərdir", – deyir və belələrinə qarşı sərt mövqe göstərməyin zəruri olduğunu bildirir. O, virusun təhlükə dərəcəsi ilə bağlı bunları dedi:

– Bütün dünya alimləri, tibb üzrə mütəxəssislər, infeksionistlər COVID –19-un ağciyərə nə qədər təhlükəli olduğunu bəyan edirlər. Hətta, Çinin Uhan Şəhər Zhongnan Xəstəxanasının həkimləri də koronavirusa yoluxan ağır xəstələrin ağciyərlərində dönməz dəyişikliklərin olduğunu bildirirlər. COVID-19-dan ölən doqquz xəstənin patoloji anatomik müayinələri zamanı aşkar edilib ki, virusa məruz qalma səbəbindən ağciyər toxuması fibrozlaşmağa başlayır, bu da infeksiyadan sağalandan sonra da insana narahatlıq verə bilər. Deməli, koronavirus insanı müalicədən sonra da sağlamlığa təsir edəcək ciddi nəticələrlə təhdid edir. Belə ki, COVID-19 ağciyər həcminin azalmasına və beyinin bütün hissələrinin ölümünə səbəb ola bilər. İnfeksiya, müalicəyə tabe olmayan xroniki xəstəlik olan ağciyər fibrozunun əsas səbəbidir. Yoluxanların əksəriyyətinin ağciyərinin həcmində kiçilmə olur. Alveolun divarlarında birləşdirici toxuma yayılması səbəbiylə hətta sağalmış xəstələrdə belə ağciyər fibrozu inkişaf edə bilər. Bu vəziyyətdə insanda tənəffüsün tezləşməsi, nəfəs darlığı, quru öskürək, oksigenin xroniki çatışmazlığı olur.

Həkimlər 25 yaşdan 93 yaşa qədər olan 104 xəstənin KT müayinəsini araşdırıblar. 76 nəfərdə xəstəlik əlamətsiz gedib. Yəni öskürək və nəfəs darlığı olmayıb, bədən istiliyi 37,5 dərəcədən yuxarı qalxmayıb. Belə xəstələrdə zərərin şiddəti daha aşağıdır, lakin onların tezliyi təxminən eynidir. Alimlərin fikrincə, yeni koronavirus ilə subklinik təzahürlərin səbəbi hələ də bəlli deyil. Bu təsir ya Yaxın Şərq tənəffüs sindromunda (MERS-CoV), ya da SARS- ın (SARS-Cov) yayılması zamanı qeydə alınmadı. Bu fakt, COVID-19-un insan orqanizminə təsir mexanizminin hərtərəfli öyrənilməsinə, xüsusən də asimptomatik hallarda daha mükəmməl bir klinik qərar qəbul edilməsinə ehtiyac olduğunu göstərir. FCIM (İngilis reanimasiya tibb fakültəsi) izah edib ki, koronavirus yoluxmuş insanların ağciyərlərinin selikli qişasının iltihabı nəticəsində yaxınlıqdakı qan damarlarından çıxan maye ağciyərlərin hava qovuqlarına sızaraq nəfəs almağı çətinləşdirir. Mütəxəssislər xəstəliyin əvvəlcə ağciyərlərə təsir etdiyini, sonra böyrəklərə zərər verə biləcəyini iddia edirlər.

**Respublikanın baş infeksionisti Cəlal İsayev** yay mövsümünün başlanması ilə əlaqədar istirahətə getmək istəyənlərə bildirib ki, bu mövsümdə insanların bölgələrə gedib istirahət etməsi təəssüf ki, mümkün olmayacaq:

– Əgər vətəndaşlar maskadan istifadə etməsə, infeksiya bu şəkildə artmaqda davam etsə, rayonlara gediş-gəliş məhdudiyyəti götürülməyəcək. Maskaya etinasız yanaşanlarla, gigiyenik qaydalara məhəl qoymayanlarla, operativ qərargah tərəfindən qoyulan qaydalara və tələblərə riayət etməyənlərlə bağlı deyə bilərəm ki, hər insanın yanına maska taxmasına nəzarət üçün bir polis, bir məmur qoymaq olmaz. İnsan özü anlamalıdır ki, maska olmalıdır, biz müəyyən müddət maskada gəzməyə məcburuq. Çin bu cür məcburi qaydaların hesabına koronavirusa qalib gəldi. Biz də buna könüllü əməl etməliyik. Mütləqdirmi, kimsə bizi cərimələsin, maska taxmağa məcbur eləsin?

Əgər insanlarımız onlara verilən məlumatlara biganə qalır, tələblərə məhəl qoymur, qadağalara riayət etmir, gigiyenik vasitələrdən istifadəni eyninə almır, maska taxmırsa, onda sərt tədbirlər tətbiq etməyə zərurət yaranır. Pandemiya başlayanda tətbiq edilən sərt karantin rejimində insanlar qaydalara daha yaxşı əməl edirdilər və zaman keçdikcə, operativ qərargah sağalanların sayının, yoluxanların sayından artıq olduğunu görüb mərhələ ilə məhdudiyyətləri aradan qaldırdı. İnsanlarımız karantinin ləğv edildiyini düşünüb küçələrə axışdılar və nəticə əvvəlkindən də pis oldu. Bunu nəzərə alan hökumət qaydaya əməl etməyənlərə qarşı cərimələrin tətbiqini təsdiq etdi.

**Milli Məclisin deputatı Nəsib Məhəmməliyev deyir:**

– Milli Məclis koronavirus pandemiyası ilə mübarizə kontekstində, karantin rejiminin qaydalarına riayət olunmadıqda, 50,100 və 200 manat məbləğində cəriməni nəzərdə tutan, inzibati xətalar məcəlləsinə dəyişiklikləri qəbul edib. Cərimənin yüksək olduğu ilə bağlı həm deputatlar, həm də cəmiyyətdə müxtəlif fikirlər səsləndirilməkdədir. Reallıq ondan ibarətdir ki, qanunlara uyğun davranışlarını tənzimləyən, müəyyən olunmuş yerlərdə tibbi maska geyən, sosial məsafəni qoruyan heç bir vətəndaş cərimələnməyəcək.

İyunun 3-də Azərbaycanda 325 yeni yoluxma baş verdi. Bu, pandemiya başlayandan indiyə qədər qeydə alınan ən böyük rəqəmdir. Yeni tətbiq olunan cərimələrlə bağlı televiziyalar və digər kütləvi informasiya vasitələrində geniş məlumatlar verilməsinə baxmayaraq, şəhərin küçə və parklarında, ticarət mərkəzlərində, ictimai nəqliyyatda, bankların qarşısında da insanlar hər hansı məsafə gözlənilmədən, maskasız, heç nə olmamış kimi davranırlar.

Bu faktdır ki, zamanında dövlətin müdaxiləsi nəticəsində,pandemiyanın birinci mərhələsini ölkə olaraq biz az itkilərlə keçdik. Ancaq karantin rejimi ləğv olunduqdan sonra, koronovirusa yoluxanların sayı kəskin şəkildə artdı və bu, davam edir. Artıq Nazirlər Kabineti yanında operativ qərargah məcburiyyət qarşısında həftə sonları üçün məhdudiyyət tədbirlərini bərpa edir. Əgər yeni yoluxanların statistikası artan templə inkişaf etsə, daha ciddi tədbirlərin görülməsi qaçılmaz olacaq.

Nazirlər Kabine¬ti yanında operativ qərargahın məlumatına görə, cümə günü saat 14.00-dan bazar ertəsinədək iş qrafiki məhdudlaşdırılacaq. Bakı, Gəncə, Lənkəran, Sumqayıt və Abşeronda şənbə və bazar günləri yalnız xüsusi sağlamlıqla bağlı vəziyyətlərdə, tibb müəssisələrinə müraciət mühüm olan hallarda və zəruri həyati vacib xidmət sahələrində çalışanlara evdən çıxmağa icazə veriləcək. İctimai və şəxsi nəqliyyatın tam şəkildə məhdudlaşdırılması nəzərdə tutulur. Yalnız zəruri vacib sahələrdə çalışan şəxslərin onlardan istifadəsinə dair müəyyən istisnalar ola bilər.

Düşünürəm ki, insanlar davranışlarında diqqətli olmalı, həm özünü, yaxınlarını, eyni zamanda cəmiyyəti qorumağa təşəbbüs göstərməli və tezliklə normal həyata qayıtmağımız üçün çalışmalıdırlar.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 5 iyun.- S.9.